# Azərbaycan hazırda 20-dən çox ölkəni neftlə, 12 ölkəni qazla təchiz edir

## Bu faktlar 9-cu OPEC Beynəlxalq Seminarında açıqlanıb

Azərbaycanın "yaşıl gündəliy"i artıq bütün dünyaya bəllidir. Yaxın zamanda ölkəmiz "yaşıl enerji"nin istehsalçısı və ixracatçısı olmaqla yanaşı, həm də onun tranzitini həyata keçirəcək. Bununla yanaşı, Azərbaycan neftinin və qazının hasilatı və dünya bazarına ixracı da ahəngdar şəkildə davam edir.

Təbii ki, Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda keçirilən III Şuşa Qlobal Media Forumunda bu mövzular da diqqət mərkəzində oldu. Prezident İlham Əliyev bu aspektdə verilən sualları həmişə olduğu kimi, yenə də ətraflı və dolğun cavablandırdı. Vurğuladı ki, faydalı qazıntıları da diqqətdən kənarda qoymaq olmaz. Belə ki, yaxın gələcəkdə dünya onlarsız yaşaya bilməz, təyyarələr uça bilməz, iqtisadiyyat işləyə bilməz, bir sözlə, hər yan dayanar: "Biz "Yaşıl Keçid Proqramı"nı həyata keçiririk. Lakin, eyni zamanda anlayırıq ki, neft və qaz olmadan inkişafı, gələcəyimizi planlaşdırmaq, vətəndaşlarımız üçün lazımi şəraitləri təmin etmək mümkün olmayacaq. Bizim üçün çətin an və mürəkkəb müzakirələr oldu. Lakin düşünürəm ki, sədrliyimiz yaxşı anlaşmanı təmin etdi. Bir sözlə, öz rolumuzu Qlobal Cənub və Qlobal Şimal arasında körpü kimi gördük. Düşünürəm ki, bunun öhdəsindən gələ bildik".

Azərbaycan hazırda 20-dən çox ölkəni neft, 12 ölkəni isə qaz ilə təchiz edir. Bunu isə energetika naziri Pərviz Şahbazov 9-cu OPEC Beynəlxalq Seminarında "Neft bazarları: enerji təhlükəsizliyi, inkişaf və rifah" mövzusunda keçirilən nazirlər sessiyasında çıxış edərkən deyib.

Məlum olduğu kimi, hazırda Azərbaycan Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya, Rumıniyaya, Macarıstana, Serbiyaya, Sloveniyaya, Xorvatiyaya, Şimali Makedoniyaya və Slovakiyaya qaz ixrac edir. Gələn ildən Albaniyanın da ölkəmizdən qaz alacağı gözlənilir. Hətta bu sahədə ölkəmiz üçün yeni coğrafiya da formalaşır - Yaxın Şərq. Belə ki, Türkiyə üzərindən Suriyaya qaz ixracı nəzərdə tutulub.

Energetika nazirinin bildirdiyinə görə, Azərbaycan qazı hazırda Gürcüstanda qaz istehlakının 78 faizini, Bolqarıstanda 50-dən çoxunu, Yunanıstanda 18 faizini, İtaliyada təxminən 16 faizini, Türkiyədə isə 18,5 faizini təmin edir. "Cənub qaz dəhlizi"nə üzv olmayan ölkələrdən əlavə olaraq 14 milyard kubmetr həcmində qaz tələbi mövcuddur. Azərbaycanın təbii qaz potensialı Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaya bilər, lakin bu potensialın tam reallaşması investisiya və uzunmüddətli öhdəliklər əsasında mümkün olar. Bu baxımdan yeni yataqların işlənməsi və infrastrukturun genişləndirilməsi əsas şərtlərdir. Qeyd olunub ki, beynəlxalq tərəfdaşlarla birlikdə işlənilən 5 karbohidrogen layihəsindən 2030-cu ilə qədər əlavə neft-kondensat hasilatı gözlənilir. Həmçinin dənizdə və quruda perspektivli strukturlar üzrə işlər aparılır.

Nazir 2050-ci ilə qədər enerji balansında neft-qazın payının 53 faizdən yüksək olmasına dair proqnozlara rəğmən ənənəvi enerji resurslarının inkişafı ilə bağlı hazırkı məhdudiyyətlərin gələcəkdə təchizat çatışmazlığı ilə nəticələnə biləcəyini də diqqətə çatdırıb: "Neft-qazın enerji qarışığımızda əsas yer tutduğunu və bu tendensiyanın gələcəkdə də davam edəcəyini nəzərə alaraq, bu sahəyə investisiyalar təxirə salınmamalıdır. Davamlı enerji təchizatı sərmayə olmadan mümkün deyil. Enerji layihələrinə sərmayənin azalması gələcəkdə tədarükdə fasilələrə və real risklərə gətirib çıxara bilər".

Məhz bu məsələdən III Şuşa Qlobal Media Forumunda da geniş bəhs olunub. Prezident İlham Əliyev bu dəfə də vurğulayıb ki, Avropa bankları artıq faydalı qazıntı enerji növlərinə maliyyələşmə ayırmır: "Avropa Yenidənqurma və İnkişaf Bankı maliyyələşməni demək olar ki, dayandırmışdır. Buna görə isə əlbəttə ki, biz imkanlarımızı genişləndirmək üçün vəsait cəlb edə bilmərik. Bu gün "Cənub qaz dəhlizi" maksimal həcmdə fəaliyyət göstərir. Yeni məkanlar üçün biz interkonnektorlardan istifadə edirik. Ancaq əsas boru kəməri tam həcmdə doludur. Onu genişləndirmək üçün bizim əlavə maliyyə vəsaitinə ehtiyac var. Ona görə Avropa institutları bunu nəzərə almalıdırlar və siyasətlərində dəyişiklik etməlidirlər ki, biz əlavə vəsait cəlb edə bilək. Bu şəraitdə bu gün bizim üçün artıq tamamlanmış kimi görünən bir məsələ yenidən inkişaf etdirilə bilər".

Sonda Dövlət Gömrük Komitəsinin hesabatında yer alan bir neçə rəqəmi də göstərmək istərdik. Beləliklə, bu ilin yanvar-iyun aylarında Azərbaycandan 18 ölkəyə 12 milyon 46 min 352,54 ton həcmində neft ixrac edilib. Hesabat dövründə Azərbaycanın neft ixrac etdiyi TOP-10 ölkələr sırasına İtaliya, Çexiya, Xorvatiya, Rumıniya, Portuqaliya, Almaniya, Böyük Britaniya, İrlandiya, Yunanıstan və Niderland daxil olub.

Cari ilin birinci yarısında Azərbaycanda 25,2 milyard kubmetr təbii qaz hasil edilib. Bu xəbəri isə Energetika Nazirliyi yayıb. Hasil olunan qazın 6,6 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqlarının, 13,8 milyard kubmetri "Şahdəniz" yatağının, 0,8 milyard kubmetri "Abşeron" yatağının, 4 milyard kubmetrə yaxını SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) payına düşüb.

Bu dövrdə xaricə qaz satışı 12,1 milyard kubmetr təşkil edib. Bundan 6,1 milyard kubmetr Avropaya, 4,9 milyard kubmetr Türkiyəyə (o cümlədən TANAP-la 2,9 milyard kubmetr), 1,1 milyard kubmetr Gürcüstana satılıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan.-2025.- 24 iyul (№ 151).- S.4.